“Dövlət qeydiyyatına alınmışdır”
Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsi tərəfindən
Qeydiyyat ________________

“_____”________________2024-cü il

Rəis ____________________

**“Təsdiq edilmişdir”**
**“Aqrar Sığorta Müştərək Sığorta Şirkəti” ASC-nin təsisçiləri tərəfindən**

1. “Azərbaycan Sənaye Sığorta” ASC-nin adından Cəbrayılova Afaq Nazim qızı
______________________
2. “AzSığorta” ASC-nin adından Soltanov Yusif Rəhim oğlu
______________________
3. “Bakı Sığorta” ASC-nin adından Məmmədov Ramin Hacıağa oğlu
______________________
4. “Xalq Sığorta” ASC-nin adından Elmin Ağamirli Nazim oğlu
______________________
5. “Qala Sığorta” ASC-nin adından Allahverdiyev Fuad Kamran oğlu
______________________
6. “Mega Sığorta” ASC-nin adından İbrahimli Uğur Azad oğlu
______________________
7. “PAŞA Sığorta” ASC-nin adından Ömərova Aygün Rüstəm qızı
______________________

# “AQRAR SIĞORTA MÜŞTƏRƏK SIĞORTA ŞİRKƏTİ”

## Açıq Səhmdar Cəmiyyətinin

## Nizamnaməsi

# 1. ÜMUMİ MÜDDƏALAR

1.1. "Aqrar Sığorta Müştərək Sığorta Şirkəti" Açıq Səhmdar Cəmiyyəti (bundan sonra - Cəmiyyət) Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən açıq səhmdar cəmiyyət formasında yaradılan və fəaliyyət göstərən hüquqi şəxsdir.

1.2. Cəmiyyət 2019-cu il 27 iyun tarixli 1617-VQ saylı "Aqrar sığorta haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra – Qanun) tələbləri nəzərə alınmaqla yaradılmışdır.

1.3. Cəmiyyət öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının Mülki Məcəlləsini, "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununu, Qanunu, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 dekabr tarixli 472 nömrəli Qərarı ilə təsdiq edilmiş "Aqrar Sığorta Fondunun Nizamnaməsi"ni (bundan sonra - Fondun Nizamnaməsi), digər normativ hüquqi aktları, normativ xarakterli aktları və Aqrar Sığorta Fondunun (bundan sonra – Fond) Himayəçilik Şurasının və İdarə Heyətinin qərarlarını rəhbər tutur.

1.4. Cəmiyyətin rəsmi adı aşağıdakı kimidir:

Azərbaycan dilində: "Aqrar Sığorta Müştərək Sığorta Şirkəti" Açıq Səhmdar Cəmiyyəti;

İngilis dilində: "Agro İnsurance Mutual İnsurance Company" Open Joint Stock Company.

1.4.1. Cəmiyyətin qısa adı:

Azərbaycan dilində: "Aqrar Sığorta Müştərək Sığorta Şirkəti" ASC;

İngilis dilində: "Agro İnsurance Mutual İnsurance Company" OJSC.

1.5. Cəmiyyətin hüquqi ünvanı: Bakı şəhəri, Xətai rayonu, Nobel prospekti, ev 175. AZ 1026.

# 2. CƏMİYYƏTİN HÜQUQİ STATUSU

2.1. Cəmiyyət Fondun adından aqrar sığorta sisteminin idarəedilməsini həyata keçirən kommersiya hüquqi şəxs kimi qeyri-müəyyən müddətə təsis olunur.

2.2. Cəmiyyət Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən dövlət qeydiyyatına alındığı tarixdən hüquqi şəxs kimi mövcud olacaq.

2.3. Cəmiyyətin əsas fəaliyyət növü Fondun adından aqrar sığorta sisteminin idarəedilməsidir və Cəmiyyət öz adından sığorta fəaliyyətini həyata keçirə bilməz.

2.4. Cəmiyyət maddi və qeyri-maddi aktivlərin mülkiyyətçisi ola, onlar üzrə hüquqları əldə edə, üzərinə öhdəliklər götürə, əqdlər bağlaya və məhkəmədə, arbitraj məhkəmələrində və mübahisələri həll edən digər orqanlarda iddiaçı və cavabdeh qismində çıxış edə və qüvvədə olan qanunvericilik və fəaliyyət predmeti çərçivəsində, hüquqi şəxs kimi digər hüquqlara malik ola və öhdəlikləri daşıya bilər.

2.5. Cəmiyyətin öz öhdəlikləri üçün məsuliyyəti onun əmlakı ilə məhdudlaşır.

2.6. Cəmiyyətin hesabları, möhürləri, ştampları, blankları və Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən yaradılan və mövcud olan təsərrüfat cəmiyyətlərinə xas olan digər rekvizitləri vardır.

# 3. CƏMİYYƏTİN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

3.1. Öz məqsədlərinə çatmaq üçün, Cəmiyyət əqdlər bağlamaq, əmlak və qeyri-əmlak hüquqları əldə etmək, üzərinə öhdəlikləri götürmək və digər qanuni işləri icra

3.2. Cəmiyyətin, qüvvədə olan qanunvericiliyə əməl etmək şərtilə, aşağıdakı hüquqları vardır:

3.2.1. yerli və xarici banklarda bank hesabları açmaq;

3.2.2. Cəmiyyətin fəaliyyətinin tanıdılması üçün tədbirlər həyata keçirmək;

3.2.3. Nizamnamə ilə qadağan edilən şərtlər nəzərə alınmaqla, digər hüquqi şəxslərin iştirakçısı olmaq və törəmə müəssisələri təsis etmək;

3.2.4. Azərbaycan Respublikasında və ya xaricdə daşınar və ya daşınmaz əmlakı almaq, icarəyə götürmək və ya icarəyə vermək;

3.2.5. Azərbaycan Respublikasında və ya Azərbaycan Respublikası hüdudlarından kənarda öz işçiləri üçün təlimlər təşkil etmək;

3.2.6. Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulan digər hüquqlara malik olmaq.

3.3. Cəmiyyət müvafiq qanunvericiliyə əsasən zəruri olan hesabatları təqdim etməli, Fondun Nizamnaməsi ilə müəyyən edilmiş öhdəlikləri və digər vəzifələri yerinə yetirməlidir.

## 4. CƏMİYYƏTİN MƏQSƏDİ VƏ FƏALİYYƏT İSTİQAMƏTLƏRİ

4.1. Cəmiyyət, Fondun adından aqrar sığorta sisteminin idarəedilməsini həyata keçirmək məqsədilə yaradılır.

4.2. Cəmiyyət Qanunun 9.1-ci maddəsinə əsasən, Azərbaycan Respublikası ərazisində qeyri-həyat sığortası sahəsi üzrə lisenziyaya malik olan sığorta şirkətləri tərəfindən açıq səhmdar cəmiyyəti təşkilati hüquqi formasında bərabər səhmlərlə yaradılır və fəaliyyət göstərir.

4.3. Səhmdarlardan heç biri öz payını satmadığı halda Cəmiyyət əlavə səhm buraxılışını həyata keçirir.

4.4. Cəmiyyətin fəaliyyətinə nəzarət "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Azərbaycan Respublikasının Mərkəzi Bankı (bundan sonra – Bank) tərəfindən həyata keçirilir.

4.5. Cəmiyyətin tələb olunan kapitalının minimum məbləği Bank tərəfindən müəyyən edilir.

4.6. Cəmiyyət tərəfindən qiymətli kağızların (səhmlər istisna olmaqla) buraxılmasına, dövlət büdcəsindən və ya digər mənbələrdən borc vəsaitinin cəlb edilməsinə yol verilmir.

4.7. Cəmiyyətin əməliyyat xərcləri Fondla aralarında bağlanmış müqavilə əsasında müəyyən edilir.

4.8. Cəmiyyət Qanunla və Fondla arasında bağlanmış müqaviləyə əsasən hüquq və vəzifələri yerinə yetirir.

## 5. SƏHMDARLARLA CƏMİYYƏTİN VƏ FONDUN ƏMLAK MÜNASİBƏTLƏRİNİN ƏSASLARI

5.1. Aqrar sığorta qanunvericiliyi və bu Nizamnamədə ayrı qayda nəzərdə tutulmayıbsa, Səhmdarlar ilə əmlak münasibətləri ümumi kommersiya əsasları ilə tənzimlənir.

5.2. Cəmiyyət Fond tərəfindən verilmiş əmlakdan və daxil olan vəsaitlərdən yalnız aşağıdakı məqsədlər üçün istifadə edə bilər:

5.2.1. sığorta ödənişlərinin həyata keçirilməsi;

5.2.3. vasitəçi aqrar sığortaçılara komisyon muzdların ödənilməsi;
5.2.4. inzibati xərclərin ödənilməsi;
5.2.5. investisiya əməliyyatlarının aparılması;
5.2.6. aqrar sığorta informasiya sisteminin (ASİS) formalaşdırılması və ona texniki xidmətin göstərilməsi.

5.3. Cəmiyyət Səhmdarlarının üçüncü şəxslər qarşısında öhdəliklərinə görə məsuliyyət daşımır.

5.4. Səhmdarlar Cəmiyyətin öhdəliklərinə görə məsuliyyət daşımır və Cəmiyyətin fəaliyyəti ilə bağlı zərər üçün nizamnamə kapitalına qoyduğu mayanın dəyəri həddində risk daşıyırlar. Təsisçilər üçüncü şəxslər qarşısında yalnız Cəmiyyətin təsis edilməsi ilə əlaqədar olaraq və Cəmiyyətin Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən qeydiyyata alındığına qədər yaranmış öhdəliklərə görə məsuliyyət daşıyırlar.

## 6. CƏMİYYƏTİN NİZAMNAMƏ KAPİTALI VƏ AKTİVLƏRİ

6.1. Cəmiyyətin nizamnamə kapitalı 2 187 500 (iki milyon yüz səksən yeddi min beş yüz) manat həcmində olmaqla, hər biri 1 (bir) manat dəyərində olan iki milyon yüz səksən yeddi min beş yüz ədəd adi adlı sənədsiz səhmdən ibarətdir. Cəmiyyətin səhmdarlarının nizamnamə kapitalındakı paylarının hər biri pul şəklində olmaqla aşağıdakı kimi müəyyən edilmişdir:

| | | |
|---|---|---|
| 6.1.1. | "Azərbaycan Sənaye Sığorta" Açıq Səhmdar Cəmiyyəti | 312 500 manat, 312 500 səhm, 14 $\frac{2}{7}$ %; |
| 6.1.2. | "AzSığorta" Açıq Səhmdar Cəmiyyəti | 312 500 manat, 312 500 səhm, 14 $\frac{2}{7}$ %; |
| 6.1.3. | "Bakı Sığorta" Açıq Səhmdar Cəmiyyəti | 312 500 manat, 312 500 səhm, 14 $\frac{2}{7}$ %; |
| 6.1.4. | "Xalq Sığorta" Açıq Səhmdar Cəmiyyəti | 312 500 manat, 312 500 səhm, 14 $\frac{2}{7}$ %; |
| 6.1.5. | "Qala Sığorta" Açıq Səhmdar Cəmiyyəti | 312 500 manat, 312 500 səhm, 14 $\frac{2}{7}$ %; |
| 6.1.6. | "Meqa Sığorta" Açıq Səhmdar Cəmiyyəti | 312 500 manat, 312 500 səhm, 14 $\frac{2}{7}$ %; |
| 6.1.7. | "PAŞA Sığorta" Açıq Səhmdar Cəmiyyəti | 312 500 manat, 312 500 səhm, 14 $\frac{2}{7}$ %. |

6.2. Cəmiyyətin nizamnamə kapitalı cəmiyyətin səhmdarları tərəfindən Cəmiyyət qeydiyyata alınanadək tamamilə ödənilməlidir.

6.3. Cəmiyyətin nizamnamə kapitalı Fondun razılığı ilə Səhmdarların Ümumi Yığıncağının qərarına əsasən səhmlərin nominal dəyərini artırmaq və ya əlavə səhmlər buraxmaq yolu ilə artırıla bilər.

6.4. Səhmdar Cəmiyyətin nizamnamə kapitalına heç bir halda ödəniş etməkdən azad oluna bilməz.

6.5. Cəmiyyətin nizamnamə kapitalı qanunvericilikdə müəyyən olunmuş şərtlərə əməl olunmaqla, Fondun razılığı ilə Səhmdarların Ümumi Yığıncağının qərarına əsasən səhmlərin nominal dəyərini azaltmaq və ya səhmlərin bir hissəsini satın alıb onların bir hissəsini azaltmaq yolu ilə azaldıla bilər.

6.6. Cəmiyyətin aktivləri müvafiq qanunvericiliyə əsasən aşağıdakılardan formalaşır:

6.6.1. Səhmdar tərəfindən Cəmiyyətə qoyulan nağd pul, maddi və qeyri-maddi əmlak hüquqlar daxil olmaqla);

6.6.2. Cəmiyyətin fəaliyyətindən əldə olunan gəlir;
6.6.3. qanunvericiliklə qadağan olunmayan digər mənbələrdən.
6.7. Cəmiyyətin əmlakı əsas, dövriyyə və qüvvədə olan qanunvericiliyə əsasən digər vəsaitlərdən ibarət olacaq.

## 7. SƏHMDARLARIN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

7.1. Qüvvədə olan qanunvericilik, hazırki Nizamnamə başqa cür tələb etdiyi hallar istisna olmaqla, Səhmdarlar Azərbaycan Respublikası ərazisində sığorta fəaliyyəti göstərmək üçün qeyri-həyat sığorta sahəsi üzrə fəaliyyətə lisenziyaya malik olan sığorta şirkətləridir.
7.2. Səhmdarların aşağıdakı hüquqları vardır:
7.2.1. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq Cəmiyyətin idarəedilməsində iştirak etmək;
7.2.2. Cəmiyyətin idarəetmə orqanlarına namizədləri təklif etmək, üzvlərini seçmək və təyin etmək və onları vəzifələrdən azad etmək;
7.2.3. Cəmiyyətin idarəetmə və digər orqanlarına müzakirə üçün təklifləri təqdim etmək;
7.2.4. Cəmiyyətin fəaliyyətindən dividend əldə etmək;
7.2.5. Cəmiyyətin fəaliyyəti, vəsaitləri, öhdəlikləri, gəlir və itkiləri barədə və bütün digər məlumatları əldə etmək;
7.2.6. qanunvericiliklə tələb edilən və ya adətən aparılan yoxlamalardan əlavə olaraq, öz hesabına Cəmiyyətin fəaliyyəti ilə bağlı müstəqil (kənar) auditorun rəyini ildə 2 (iki) dəfədən çox olmayaraq tələb etmək;
7.2.7. qanunvericilik və bu Nizamnamə ilə müəyyən olunnan hüquqlara malik olmaq;
7.3. Səhmdarların vəzifələri:
7.3.1. Azərbaycan Respublikasının qüvvədə olan qanunvericilik, bu Nizamnamə və Cəmiyyətin Ümumi Yığıncağının qərarlarına riayət etmək;
7.3.2. Cəmiyyətin məqsədlərinə çatmaq üçün digər Səhmdarlarla əməkdaşlıq etmək;
7.3.3. Cəmiyyətin fəaliyyəti ilə bağlı nizamnamə kapitalına paylarını ödəmək;
7.3.4. Cəmiyyətin fəaliyyəti ilə bağlı olan hər hansı bir məxfi məlumatı açıqlamamaq;
7.3.5. bu Nizamnamədə əks olunmuş hallardan başqa, digər Səhmdarların icazəsi olmadan öz payının hamısının və ya bir hissəsinin satmamaq, ötürməmək, girov qoymamaq, digər şəkildə yükləməmək, satmaq hüququnu verməmək və ya onunla bağlı digər şəkildə sərəncam verməmək;
7.3.6. Cəmiyyətin məlumat təchizatçısı olmaq;
7.3.7. qanunvericilik və bu Nizamnamə ilə digər vəzifələri yerinə yetirmək.

## 8. CƏMİYYƏTİN İDARƏ OLUNMASI

8.1. Cəmiyyətin aşağıdakı idarəetmə orqanları vardır:
8.1.1. ali idarəetmə orqanı olan Səhmdarların Ümumi Yığıncağı;

8.1.2. ümumi rəhbərliyi və Cəmiyyətin fəaliyyəti üzərində nəzarəti həyata keçirən Direktorlar Şurası;

8.1.3. icra orqanı olan İdarə Heyəti;

8.1.4. Cəmiyyətin daxili audit siyasətinin və strategiyasının hazırlanmasını, həyata keçirilməsini və auditor nəzarətini təşkil edənAudit Komitəsi.

**8.2. <u>Cəmiyyətin Səhmdarlarının Ümumi Yığıncağı:</u>**

8.2.1. Səhmdarların Ümumi yığıncağı növbəti və növbədənkənar ola bilər.

8.2.2. Səhmdarların növbəti Ümumi Yığıncağı ildə bir dəfədən az olmayaraq çağırılmalıdır (illik Ümumi Yığıncaq). Səhmdarların Ümumi Yığıncağının iclaslarının çağırılması qayda və prosedurları qanunvericiliyin tələbləri nəzərə alınmaqla Səhmdarların Ümumi Yığıncağının qərarı ilə müəyyən edilir.

8.2.3. Səhmdarların Ümumi Yığıncağının növbədənkənar iclasları Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada və müddətdə səhmlərin ən azı on faizinə malik olan səhmdarların, İdarə Heyətinin və Audit Komitəsinin tələbi ilə Direktorlar Şurası tərəfindən çağırılır.

8.2.4. Səsvermə hüququna malik olan səhmdarların hamısı yekdilliklə razılıq verərsə, Ümumi Yığıncağın iclası gündəliyə daxil edilməmiş məsələləri də müzakirə edə və onlara dair qərarlar qəbul edə bilər.

8.2.5. Səhmdarların Ümumi Yığıncağında səsvermə "bir səhm – bir səs" prinsipi əsasında həyata keçirilir.

8.2.6. Səhmdarların Ümumi Yığıncağında səhmlərin azı 60 (altmış) faizinin sahibləri iştirak etdikdə Ümumi Yığıncaq səlahiyyətlidir.

8.2.7. Səhmdarların Ümumi Yığıncağının qərarı, Ümumi Yığıncaqda iştirak edən səhmdarların sadə səs çoxluğu ilə qəbul edilir.

8.2.8. Cəmiyyətin yenidən təşkili, ləğvi, Cəmiyyətin nizamnaməsinə əlavə və dəyişikliklərin edilməsi, Direktorlar Şurası üzvlərinin qanunvericiliklə müəyyəm olunmuş qaydada vəzifəyə təyin və vəzifədən azad edilməsi, başqa Sığortaçının səhmlərinin alınması, törəmə cəmiyyətlərinin yaradılması haqqında qərarlar Səhmdarların Ümumi Yığıncağında iştirak edən səsvermə hüququna malik olan səhmdarların üçdə iki səs çoxluğu ilə qəbul edilir.

8.2.9. Səhmdarların Ümumi Yığıncağına Direktorlar Şurasının sədri və ya səhmdarların səs çoxluğu ilə seçilən sədr sədrlik edir.

8.2.10. Səhmdarların Ümumi Yığıncağının protokolu yığıncaq bitdikdən sonra 3 (üç) iş günündən gec olmayaraq iki nüsxədə tərtib olunur, sədrlik edən şəxs və katib tərəfindən imzalanır və möhürlənir.

8.2.11. Səhmdarların Ümumi Yığıncağının səlahiyyətinə aşağıdakılar aiddir:

8.2.11.1. Fondun razılığı ilə Cəmiyyətin Nizamnaməsini və nizamnamə kapitalının miqdarını dəyişdirmək;

8.2.11.2. Cəmiyyətin Direktorlar Şurasının qanunvericiliklə müəyyən olunmuş qaydada seçmək və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək;

8.2.11.3. Cəmiyyətin illik hesabatlarını – mühasibat balansını, mənfəət və zərər hesabatlarını təsdiq etmək, mənfəətini və zərərini bölüşdürmək;

8.2.11.4. Cəmiyyətin yenidən təşkili və ya ləğvi haqqında qərar qəbul etmək;

8.2.11.5. Cəmiyyətin büdcəsini təsdiq etmək;

8.2.11.6. Direktorlar Şurasının və İdarə Heyətinin əsasnamələrini təsdiq etmək.

8.2.12. Səhmdarların Ümumi Yığıncağının müstəsna səlahiyyətinə aid edilmiş məsələlər həll edilmək üçün Cəmiyyətin icra orqanına verilə bilməz.

8.3.1. Direktorlar Şurası Cəmiyyətin səhmdarı olan sığorta şirkətlərindən 3 (üç) nəfər, Fonddan 1 (bir) nəfər və müstəqil üzv 1 (bir) nəfər olmaqla, 5 (beş) üzvdən ibarətdir. Direktorlar Şurasının sədri Səhmdarların Ümumi Yığıncağı tərəfindən Direktorlar Şurasının üzvləri sırasından seçilir.

8.3.2. Direktorlar Şurası üzvləri 3 (üç) ildən çox olmayan müddətə seçilirlər. Direktorlar Şurası üzvləri növbəti müddətlərə yenidən seçilə bilərlər.

8.3.3. Direktorlar Şurasının sədri Cəmiyyətin digər idarəetmə orqanında vəzifə tuta bilməz.

8.3.4. Direktorlar Şurası iclasında üzvlərinin yarısından çoxu iştirak etdikdə səlahiyyətlidir.

8.3.5. Direktorlar Şurasının qərarları iclasda iştirak edən üzvlərin sadə səs çoxluğu ilə qəbul edilir. Hər bir üzv bir səs hüququna malikdir. Direktorlar Şurasının iclaslarında üzvlərin səsvermə zamanı bitərəf qalmasına icazə verilmir. Səslər bərabər bölündükdə Direktorlar Şurası sədrinin səsi həlledici sayılır

8.3.6. Direktorlar Şurası öz səlahiyyətlərini icra edərkən qanunvericilik və Səhmdarların Ümumi Yığıncağının qərarında nəzərdə tutulan vəzifələr daşıyır.

8.3.7. Direktorlar Şurasının sədrinin və ya onun üzvünün səlahiyyətinə vaxtından əvvəl xitam verilməsi Ümumi Yığıncağı qərarı ilə həyata keçirilə bilər.

8.3.8. Cəmiyyətin Direktorlar Şurasının səlahiyyətlərinə aşağıdakılar aiddir:

8.3.8.1. Cəmiyyətin idarəedilməsinə və fəaliyyətinə nəzarəti həyata keçirmək, o cümlədən Cəmiyyətin İdarə Heyətindən hesabat almaq;

8.3.8.2. Cəmiyyətin Audit Komitəsinin üzvlərini, sədrini seçmək və Audit Komitəsinin əsasnaməsini təsdiq etmək;

8.3.8.3. Səhmdarların Ümumi Yığıncağı və İdarə Heyəti üçün tövsiyyələr vermək;

8.3.8.4. Bu Nizamnamənin, qanunvericiliyin müddəaları ilə nəzərdə tutulmuş hallarda Cəmiyyətin adından müvafiq əqdlərin bağlanmasına icazə vermək;

8.3.8.5. Cəmiyyətin fəaliyyətinin kompleks və ya ayrı-ayrı sahələrinin daxili yoxlanması barədə qərar qəbul etmək;

8.3.8.6. Müstəqil və ya daxili auditorların, habelə Bankın yoxlamalarının nəticələrinə baxmaq, bu yoxlamaların yekunlarına dair tədbirlər görmək;

8.3.8.7. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 107.1.3-cü və "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 26.2-ci maddələrinə əsasən, Cəmiyyətin icra orqanlarını yaratmaq və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək;

8.3.8.8. İdarə Heyətinin hər hansı bir üzvünün fəaliyyətini qeyri-qənaətbəxş hesab etdikdə onu vəzifədən kənarlaşdıraraq İdarə Heyətinin yeni üzvü təsdiq edilənədək müvafiq vəzifənin icrası üçün bu Qanunun tələblərinə cavab verən digər şəxsi müvəqqəti seçmək;

8.3.8.9. Cəmiyyətin maliyyə, uçot, inzibati və kadr siyasətini müəyyənləşdirmək;

8.3.8.10. Cəmiyyətin strukturunu, əməkhaqqı fondunu, işçilərinin say həddini, əməyin ödənilməsi formalarını və miqdarını müəyyən etmək;

8.3.8.11. Cəmiyyətin investisiya siyasətini təsdiq etmək;

8.3.8.12. Fondun Himayəçilik Şurasının razılığı ilə Cəmiyyətin filial və nümayəndəliklərinin açılması və ya onların ləğvi barədə qərarlar qəbul etmək, onların əsasnamələrini təsdiq etmək;

8.3.8.13. Fondun Nizamnaməsinin 4.8.1-ci yarımbəndində müəyyən olunmuş daxili qaydaları, siyasət və təlimatları Fondun Himayəçilik Şurasının razılığı ilə təsdiq etmək;

8.3.8.14. Fondun Himayəçilik Şurasının razılığı ilə Cəmiyyətin müstəqil auditorunu seçmək və təyinatını geri götürmək;

8.3.8.15. qanunvericiliklə və Səhmdarların Ümumi Yığıncağının qərarı ilə müəyyən olunan digər səlahiyyətləri həyata keçirmək.

**8.4. Cəmiyyətin İdarə Heyəti:**

8.4.1. Cəmiyyətin İdarə Heyəti 3 (üç) nəfərdən az olmayan tək sayda fiziki şəxs olan üzvlərdən ibarətdir.

8.4.2. İdarə Heyətinin üzvləri Fond tərəfindən təqdim edilmiş namizədlər arasından 3 (üç) ildən çox olmayan müddətə seçilirlər. İdarə Heyətinin üzvləri növbəti müddətlərə yenidən seçilə bilərlər.

8.4.3. İdarə Heyətinin üzvləri sırasından Fondun razılığı ilə İdarə Heyətinin sədri və sədrin müavini seçilir.

8.4.4. İdarə heyətinin sədri İdarə Heyətinin işinin təşkil edir, iclaslarını çağırır və onlara sədrlik edir, həmçinin İdarə Heyətinin üzvləri arasında səlahiyyət bölgüsü aparır, İdarə Heyətinin təsdiqlədiyi bütün sənədləri imzalayır. Cəmiyyətin fəaliyyətinə cari rəhbərliyi həyata keçirir, onun işini təşkil edir və onu təmsil edir;

8.4.5. İdarə Heyətinin iclası üzvlərin yarısından çoxu iştirak etdikdə səlahiyyətlidir.

8.4.6. İdarə Heyətinin qərarları iclasda iştirak edən üzvlərin sadə səs çoxluğu ilə qəbul edilir. Hər bir üzv bir səs hüququna malikdir. Səslər bərabər bölündükdə İdarə Heyəti sədrinin səsi həlledici sayılır. Üzvlərin səsvermə zamanı bitərəf qalmasına icazə verilmir.

8.4.7. Bu Nizamnamə və qanunvericilik ilə Səhmdarların Ümumi Yığıncağının və Direktorlar Şurasının səlahiyyətlərinə aid olmayan bütün digər məsələlər İdarə Heyəti tərəfindən həll edilir.

8.4.8. İdarə Heyəti və onun sədrinin səlahiyyətləri İdarə Heyətinin əsasnaməsində müəyyən edilir

**8.5. Cəmiyyətin Audit Komitəsinin:**

8.5.1. Cəmiyyətin daxili audit siyasətinin və strategiyasının hazırlanmasını, həyata keçirilməsini və auditor nəzarətini qanunvericilik və Audit Komitəsi haqqında əsasnamədə müəyyən olunmuş qaydada Audit Komitəsi həyata keçirir.

8.5.2. Audit Komitəsi səlahiyyətləri qanunvericiliklə və Audit Komitəsi haqqında əsasnamə ile müəyyən edilir.

8.5.3. Audit Komitəsinin üzvlərindən biri "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 32.3-cü maddəsinə uyğun olaraq seçilən müstəqil şəxs olmaqla, 3 (üç) nəfərdən az olmayan tək sayda fiziki şəxs olan üzvlərdən ibarətdir.

8.5.4. Audit Komitəsi üzvləri 3 (üç) ildən çox olmayan müddətə seçilirlər. Audit Komitəsinin üzvləri növbəti müddətlərə yenidən seçilə bilərlər.

8.5.5 Audit Komitəsinin iclasları üzvlərin yarısından çoxu iştirak etdikdə səlahiyyətlidir.

8.5.6. Audit Komitəsinin qərarları iclasda iştirak edən üzvlərin sadə səs çoxluğu ilə qəbul edilir. Hər bir üzv 1 (bir) səs hüququna malikdir. Üzvlərin səsvermə zamanı bitərəf qalmasına icazə verilmir. Səslər bərabər bölünərkən Audit Komitəsinin sədrinin səsi həlledici sayılır. Audit Komitəsinin sədrinin səlahiyyətləri bu Nizamnamə və Audit Komitəsi haqqında əsasnamə ilə müəyyən edilir.

8.5.7. Audit Komitəsinin sədri aşağıdakı səlahiyyətləri həyata keçirir:

8.5.7.1. Cəmiyyətin müvafiq struktur bölmələrindən yoxlama məqsədilə hesabat, mühasibat sənədləri və digər sənədləri tələb etmək;

8.5.7.2. zərurət yarandıqda sığorta üzrə əməliyyatların (müqavilələrin bağlanmasının) müvəqqəti dayandırılması barədə tövsiyələr vermək;

8.5.7.3. zəruri hallarda Audit Komitəsinə aid məsələlərin həllində Cəmiyyətin digər strukturlarının əməkdaşlarını cəlb etmək;

8.5.7.4. Cəmiyyətin fəaliyyəti ilə bağlı İdarə Heyətinin qəbul etdiyi qərarlar, İdarə Heyəti sədrinin əmr və sərəncamları, eləcə də digər struktur bölmələrinin qəbul etdiyi qərarlarla tanış olmaq,

8.5.7.5. Daxili audit xidməti vasitəsi ilə Cəmiyyətin bütün strukturlarının fəaliyyətinin onların əsasnamələrinə, daxili qaydalara, qüvvədə olan normativ-hüquqi aktların tələblərinə uyğun olmasına nəzarəti həyata keçirmək və onların fəaliyyətinə qiymət vermək.

8.5.8. Audit Komitəsinn öz səlahiyyətlərini icra edərkən qanunvericlik və Audit Komitəsi haqqında əsasnamə ilə nəzərdə tutulan vəzifələr daşıyır.

## 9. MÜHASİBAT UÇOTU VƏ HESABATLILIQ

9.1. Cəmiyyət, öz maliyyə və mühasibat hesabatlarını Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq aparmalıdır.

9.2. Qanunvericiliklə müəyyən edilmiş hallarda Cəmiyyətin təsərrüfat və maliyyə fəaliyyətinin yoxlanılması müstəqil (kənar) auditor(lar) tərəfindən həyata keçirilir.

9.3. İdarə Heyətinin sədri, illik kənar audit başa çatdığı və auditin nəticələri haqqında hesabat təqdim olunduğu tarixdən 15 (on beş) gün ərzində həmin hesabat(lar)ı Direktorlar Şurasına və Ümumi Yığıncağa təqdim etməlidir. Ümumi Yığıncaq müstəqil (kənar) auditor rəyi və ya hesabatının müzakirəsi və baxışı olmadan Cəmiyyətin illik maliyyə hesabatları və balansını təsdiq etmir.

9.4. Cəmiyyət Fondun Nizamnaməsi və ya Fondun tələbi ilə müəyyən edilmiş hesabatları Fonda təqdim edir.

9.5. Cəmiyyətin birinci maliyyə ili dövlət qeydiyyatına alındığı tarixdən başlayır və həmin il dekabrın 31-də başa çatır. Növbəti maliyyə ili yanvarın 1-dən başlayır və dekabrın 31-də başa çatır.

## 10. ƏMƏK MÜNASİBƏTLƏRİ

10.1. Öz əmək siyasətini həyata keçirən zaman Cəmiyyət, əmək və işçilərin maraqları ilə əlaqədar qüvvədə olan qanunvericiliyinin tələblərini yerinə yetirməlidir.

10.2. Cəmiyyət, qüvvədə olan qanunvericilik tərəfindən tələb edilən şəkildə işçilərinin gəlir vergisini tutur, sosial sığorta və digər ödənişləri həyata keçirir.

## 11. YEKUN MÜDDƏALAR

11.1. Cəmiyyətin işçi dili Azərbaycan dilidir. Qanunvericiliyin şərtlərini pozmamaq şərti ilə, Cəmiyyət öz fəaliyyətində başqa dillərdən istifadə edə bilər.

11.2. Cəmiyyətin fəaliyyəti ilə əlaqədar olan, lakin bu Nizamnamə ilə tənzimlənməyən məsələlər Azərbaycan Respublikasının qanunvericiliyi və Fondla razılaşdırılmaqla Ümumi Yığıncağın qəbul etdiyi qərarlar ilə tənzimlənir.

11.3. Bu Nizamnamə Ümumi Yığıncağın qərarı ilə tamamən və ya qismən dəyişdirilə bilər. Nizamnaməyə bütün dəyişikliklər dövlət qeydiyyatı tarixindən qüvvəyə minir.

11.4. Bu Nizamnamənin hər hansı müddəası qanunvericiliklə ziddiyyət təşkil edərsə, qanunvericiliyin müddəası tətbiq edilir.

11.5. Cəmiyyətin hərəkət və hərəkətsizliyindən verilmiş şikayətlərə Fondun Apelyasiya Şurası və Bank tərəfindən baxılır.

11.6. Cəmiyyətin ləğv olunması Azərbaycan Respublikasının Mülki Məcəlləsində və digər qanunvericilik aktlarında müəyyən edilmiş qaydada həyata keçirilir.

11.7. Cəmiyyət fəaliyyətini dayandırdıqda, ləğv olunduqda və ya məhkəmə qərarı ilə müflis elan edildikdə onun bütün sənədləri Fonda təhvil verilir.